**“525-ci qəzet”.**-2011.-22 sentyabr.-N 172.-S.5.

## “Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbulu tarixi zərurət idi”

*MÜSAHİBİMİZ SABİQ MİLLƏT VƏKİLİ İNQİLAB NADİROVDUR*

**– İnqilab müəllim, ölkəmiz Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunmasının iyirmi illiyini qeyd etməyə hazırlaşır. O vaxtlar fəal siyasətlə məşğul olan bir şəxs kimi həmin dövrü necə xatırlayırsınız?**

– Tarixi təcrübə sübut edir ki, hər bir xalqın milli müstəqilliyə qovuşması üçün əlverişli siyasi mühit və milli iradənin olması vacib şərtlərdir. Lakin güclü və vətənpərvər liderə malik olmayan xalqın real şansdan yetərincə yararlanması, milli iradəsini toparlayaraq müstəqillik, azadlıq ideallarına qovuşması da mümkün deyil. Belə situasiyalarda qətiyyətlə önə çıxan böyük şəxsiyyətlər xalqın daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali ideallarının gerçəkləşməsində müstəsna rol oynayırlar.

XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan ümummilli lider Heydər Əliyev də məhz belə xarizmatik liderlərdən biri kimi xalqımızın taleyində misilsiz rol oynadı, onu tarixən can atdığı müstəqillik ideallarına qovuşduraraq mütərəqqi tarixi ənənələr əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürdü. Bu gün siyasi baxışlarından asılı olmayaraq mütləq əksəriyyət etiraf edir ki, Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi istiqamətində cərəyan edən müxtəlif proseslərin önündə getdiyini birmənalı olaraq təsdiqləyən faktlar kifayət qədərdir. Respublikada geniş vüsət almış milli azadlıq hərəkatı ilə eyni dövrdə xalqda milli heysiyyatı, özünüdərki daha da gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən genişmiqyaslı addımlar da məhz ulu öndər Heydər Əliyevin keçmiş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına rəhbərlik etdiyi dövrdə atıldı. Muxtar Respublikanın ali orqanının 1990-cı il noyabrın 17-də keçirilmiş birinci sessiyasında Azərbaycanın milli dövlət dirçəlişi prosesinin həyata keçirilməsi məsələsi geniş müzakirə olundu, keçmiş Naxçıvan MSSR-in adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılması barədə tarixi qərar verildi. Həmin sessiyada həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin rəmzi olan üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında da yekdilliklə qərar qəbul olundu.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi xalqımızın müstəqillik mücadiləsilə bağlı konstitusion müstəvidəki ilk həlledici addımı atdı. Bu qərarlarla Naxçıvan Muxtar Respublikası faktiki olaraq keçmiş SSRİ-nin yurisdiksiyasından çıxarıldı. Sonrakı mərhələdə muxtar respublika rəhbərliyinin çıxardığı digər tarixi qərarlar da Azərbaycan xalqının həqiqi müstəqilliyə qovuşmasını sürətləndirdi. 1991-ci il martın 17-də Azərbaycanda keçirilən və keçmiş SSRİ-nin saxlanılmasına münasibəti ifadə edən referendumun Naxçıvanda boykot edilməsi faktı da ulu öndərin müstəqillik ideallarına nə qədər bağlı şəxsiyyət olduğunu təsdiqləyir. O zaman respublika rəhbərliyi bu seçkiləri saxtalaşdıraraq Moskvanın tələb etdiyi rəqəmi “rəsmiləşdirsə” də, Naxçıvan ictimaiyyəti ulu öndər Heydər Əliyevin rəhbərliyi altında müstəqillik istəyini ortaya qoydu.

**– Azərbaycan Respublikası Dövlət Müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı qəbul edilərkən siz də parlament üzvü idiniz. O günləri necə xatırlayırsınız?**

–1991-ci il avqustun 30-da keçmiş Azərbaycan SSR Ali Soveti demokratik qüvvələrin, o cümlədən Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevin səyləri ilə “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında” bəyanat qəbul etdi. Bəyanatda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin BMT-nin nizamnaməsində, digər beynəlxalq hüquqi paktlarda və konvensiyalarda təsbit edilmiş prinsiplərə müvafiq surətdə tanınması üçün dünya dövlətlərinə çağırış da yer almışdı. Ali Sovetin 30 avqust tarixli iclasında bəyanatla yanaşı, “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı” layihəsinin iki həftə müddətində hazırlanması barədə qərar qəbul edilsə də, respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitdi.

Etiraf etməliyik ki, həmin vaxt hökumətin hazırladığı “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı” layihəsində müəyyən çatışmazlıqlar, boşluqlar var idi. Məhz buna görə də alternativ layihə hazırlanmış, bu layihə müvafiq işçi qrupuna təqdim edilmişdi. Lakin oktyabrın 17-də Ali Sovetdə dövlət müstəqilliyi barədə Konstitusiya Aktı müzakirəyə çıxarılanda alternativ layihə ümumiyyətlə nəzərə alınmamışdı. O zaman Ali Sovetin deputatı kimi mən çıxış edərək göstərdim ki, əgər biz doğrudan da Azərbaycanın dövlət müstəqilliyini bərpa ediriksə, onda birinci, Azərbaycan Respublikasının 1918-ci ilin may ayının 28-dən 1920-ci ilin aprelin 27-nə qədər mövcud olmuş eyniadlı dövlətin hüquqi xələfi adlandırırıqsa, o vaxt Azərbaycanın ərazisi 114 min kvadratkilometr olub, ötən 70 il ərzində Azərbaycan öz ərazisinin faktiki olaraq 28 min kvadratkilometrini itirib. Biz əgər dövlət müstəqilliyimizi bərpa ediriksə, deməli, bu dövr ərzində torpaqların verilməsi ilə əlaqədar çıxarılmış qanunlar, qərarlar və müqavilələr ləğv edilməlidir və biz həmin əraziləri tələb etməliyik. İkinci, Etibar Məmmədovun və Fuad Ağayevin birgə hazırladıqları ikinci qanun layihəsi var və mən onu oxumuşam. Yəqin ki, deputat yoldaşlar da oxuyublar. Mən təklif edirəm ki, yeni komissiya yaradılsın, hər iki layihəyə birgə baxılsın, yeni qanun layihəsi hazırlansın və yekun layihə Ali Sovetin sessiyasında müzakirə edilsin. Üçüncüsü, hazırlanmış yekun qanun layihəsi təkliflərlə birlikdə ümumxalq müzakirəsinə (referenduma) verilsin. Mənim çıxışımdan sonra Ali Sovet qərara aldı ki, müvafiq işçi qrupu yaradılsın və hər iki layihə üzərində operativ şəkildə iş aparıb Ali Sovetə müzakirə üçün vahid layihə təqdim etsin. Oktyabrın 17-də axşam yeni yaradılmış işçi qrupunun rəhbəri deputat Hacıbaba Əzimov, hüquqşünaslar Şahin Əliyev, Fuad Ağayev,

Niyazi Səfərov sənəd üzərində gərgin iş apardılar. Nəticə etibarilə 18 oktyabrda müzakirəyə çıxarılan layihədə alternativ təkliflərin böyük qisminin nəzərə alınması "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı"nın daha təkmil sənəd kimi qəbuluna imkan verdi. Bu gün də böyük qürur hissi ilə xatırlayıram ki, o zaman təşəbbüskarı olduğum məsələlər reallaşdı və məlum "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı" daha da təkmilləşdirildi.

1991-ci il oktyabrın 18-də böyük dövlət xadimi Heydər Əliyevin də əsas təşəbbüskarlardan biri olduğu "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı"-nın Ali Sovet tərəfindən qəbul edilməsiylə Azərbaycanın istiqlaliyyəti bütün dünyaya bəyan edildi. Həmin Konstitusiya Aktı respublikamızı rəsmi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin varisi və müstəqil respublika elan etdi. Həmin aktda eyni zamanda Azərbaycan xalqının idarəetmə formasını seçmək, başqa xalqlarla münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək hüququ təsbit olunmuşdu. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın 12-ci maddəsində Azərbaycan xalqının müstəqil, dünyəvi, demokratik, hüquqi və unitar dövlət yaratma yolunu tutması fikri öz əksini tapmışdı. Bu ali sənəddə hakimiyyətin və eləcə də bütün təbii sərvətlərin xalqa mənsubluğu, mülkiyyətin bütün formalarının bərabərliyi, vətəndaşların seçki hüququnun, çoxpartiyalı sistemin təminatı, habelə insan və vətəndaş hüquq və azadlıqlarının ümumi prinsipləri də rəsmən elan edilmişdi.

**– Aradan illər keçib. Bəs bu gün müstəqil Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzunu necə dəyərləndirirsiniz?**

– Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biri də müstəqil Azərbaycanın uğurlu neft strategiyasının hazırlanaraq həyata keçirilməsidir. 1994-cü ilin 20 sentyabrında dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi", bu mənada, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində müstəsna rol oynadı. Həmin saziş nəticəsində bütün dünyanın diqqət mərkəzinə çevrilən Azərbaycan eyni zamanda qlobal məkanda özünün statusunu müəyyənləşdirməyə nail oldu.

Ümumiyyətlə, Heydər Əliyevin böyük müdrikliklə irəli sürdüyü inkişaf modeli öz spesifikliyi ilə fərqlənməklə, demokratik dəyərləri özündə maksimum ehtiva edən milli inkişaf prioritetlərini müəyyənləşdirmişdi. Məhz bunun nəticəsidir ki, Azərbaycan cəmi 17 il müddətində inanılmaz yol qət edərək bir sıra Qərb dövlətlərinin onilliklər ərzində zərrə-zərrə əldə etdiyi iqtisadi tərəqqiyə nail olub.

70 il inzibati-amirlik sistemində yaşamış, milli ideallardan uzaqlaşdırılmış, iqtisadiyyatı səmərəsiz, köhnə texnologiya və infrastruktur üzərində qurulmuş respublikanın qısa müddətdə qazandığı nailiyyətlərin miqyası Azərbaycanla genişmiqyaslı əməkdaşlığa maraq göstərən beynəlxalq təşkilatlarda, habelə aparıcı Qərb dövlətlərində də heyrət doğurur. Möhtərəm prezident İlham Əliyevin ötən 8 il müddətində həyata keçirdiyi siyasət Azərbaycanda möhkəm təməllərə söykənən və dinamik sosial-iqtisadi tərəqqinin qorunub saxlanılmasına yönəlib. Müstəqil Azərbaycan son illərdə inanılmaz dərəcədə dəyişib, zamanı qabaqlayaraq az müddətdə onilliklərə bərabər yol qət edib. Bu gün ikinci elə bir dövlət tapmaq çətindir ki, son 8 ildə dövlət büdcəsi 10 dəfə, hərbi xərcləri 20 dəfə, valyuta ehtiyatları 18 dəfə artmış. Azərbaycanda ötən dövrdə maaş və pensiyalar da orta hesabla 5-6 dəfə artıb, yoxsulluq 5 dəfə azalaraq 49 faizdən 9,1 faizə enib, 900 minədək yeni iş yeri açılıb. Bütövlükdə milli iqtisadiyyat 3 dəfə, büdcə xərcləri 12 dəfə, hərbi xərclər təxminən 20 dəfə, valyuta ehtiyatları 18 dəfə artıb.

Azərbaycan təkcə sosial-iqtisadi sahədə deyil, siyasi müstəvidə də bir çox problemləri geridə qoyur. Bir vaxtlar dünya xəritəsində yetərincə tanınmayan, bədnam erməni lobbisinin təsiri ilə müxtəlif təzyiqlərə, təhdidlərə, ədalətsizliklərə məruz qalan, informasiya blokadası şəraitində haqlı mövqeyini dünyaya çatdıra bilməyən Azərbaycan bu gün tamam fərqli statusda çıxış edir. Qürur doğuran bir haldır ki, Azərbaycan bu gün bütün regional məsələlərdə əsas oyunçulardan biridir, regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycansız gerçəkləşə bilməz. Dünya siyasətinə əsaslı təsir imkanları olan dövlətlər hazırda Azərbaycanla hesablaşır, onun mövqeyini nəzərə alırlar.

Azərbaycanın yaxın-uzaq ölkələrlə münasibətləri qarşılıqlı maraqlar, sivil birgəyaşayış prinsipləri əsasında inkişaf edir. Bu gün Azərbaycan regionda hansısa ölkədən enerji asılılığı olmayan yeganə ölkədir. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri dünya miqyaslı layihələr olmaqla, Azərbaycanın enerji təhlükəsizliyinə geniş imkanlar açır. Bu layihələr eyni zamanda respublikamızın müstəqilliyini daha da möhkəmləndirir, regionda müstəqil siyasət aparmasını təmin edir.

**BƏXTİYAR.**